Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 39-40 (7560-7561) • 1933-cü ildən nəşr olunur • Bazar ertəsi, 26 avqust 2019-cu il. • news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***21 avqust***

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanununun tətbiqi barədə sərəncam imzalayıb.

* * *

Ölkə başçısı cənab İlham Əliyev "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında" Sərəncam imzalayıb.

***19 avqust***

Dövlətimizin başçısı "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1619-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Ölkə başçısı İlham Əliyev "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1618-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***16 avqust***

Ölkə Prezidenti "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına və mülki işçilərinə fəxri adların verilməsi haqqında" Sərəncam imzalayıb.

***17 avqust***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstan İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Əşrəf Qaniyə məktub göndərərək Əfqanıstanın milli bayramı - Müstəqillik Günü münasibətilə onu və Əfqan xalqını öz adından və Azərbaycan xalqı adından təbrik edib.

***16 avqust***

Dövlətimizin başçısı İndoneziya Respublikasının Prezidenti Zati-aliləri cənab Coko Vidodoya məktub göndərərək İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə onu və İndoneziya xalqını öz adından və Azərbaycan xalqı adından təbrik edib.

# İqtisadi sahədə əldə olunan uğurlar sosial rifahın əsasıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən 2019-cu ilin ilk altı ayının yekunlarına həsr olunmuş müşavirədə qeyd olunmuşdur ki, qazanılan nailiyyətlər ölkəmizin düzgün istiqamətdə irəlilədiyini, inkişafın davamlı olduğunu bir daha təsdiqləyir.

Müşavirədə dövlət başçımız bu barədə deyib: "Ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur. Ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu özünü rəqəmlərdə də əks etdirir. İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, "SOKAR-Polymer" zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı əlbəttə ki, çox sevindirici haldır."

Bu ilin ötən dövründə də sənayeləşmə sahəsində əvvəlki illərdə başlanmış nəhəng layihələrin icrası uğurla davam etdirilmiş, yeni layihələrə start verilmişdir.

Regionlarda da sənaye parkları və məhəllələri yaradılır. İndiyədək yaradılmış 9 sənaye parkı və məhəllələrinlə artıq 78 pezident qeydiyyatdan keçib, onlardan 48-i fəaliyyətə başlayıb. Sənaye parkları və məhəllələrinə 6,4 milyard manat sərmaye qoyuluşu nəzərdə tutulub ki, artıq bu sərmayənin 5,7 milyard manatı faktiki olaraq yatırılıb. Bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Qeyd olunan layihələrin reallaşması nəticəsində 1,5 milyard manatlıq məhsul istehsal edilib və bunun 300 milyon manatlığı xarici bazarlara yönəldilib.

Dövlət Statistika Komitəsinin 2019-cu ilin yarısının yekunlarına aid məlumatında bildirilir ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar 23,6 milyard manatlıq məhsul istehsal ediblər. Bu da keçən ilin 6 ayında olduğundan 1,8 faiz çoxdur. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 15,7 faiz artıb. Sənaye məhsullarının 69,5 faizi mədənçıxarma, 25,6 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Ölkə Prezidentinin yanında keçirilən bu ilin altı ayının sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə bu günkü iqtisadi inkişaf üçün neft-qaz sektorunun əsas olduğu vurğulanıb və bu sahədə mühüm addımlar atıldığı qeyd edilib. Dövlət başçısı bu barədə deyib: "Cənub qaz dəhlizi"nin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda "Cənub qaz dəhlizinin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu tarixi layihədir. "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir."

Hazırda Azərbaycan sənayesində qeyri dövlət sektorunun payı 82,5 faizdir. Ümumi istehsalın 92 faizi sənaye məhsullarının istehsalı, qalan sənaye xarakterli xidmətlər hesabına yaradılır.

Bu ilin ötən aylarında ölkəmizdə aqrar sektorda da yaxşı nəticələr əldə olunmuşdur. İlin birinci yarısında kənd təsərrüfatı məhsulları istehsalında 13 faiz, o cümlədən bitkiçilikdə 25 faiz artım qeydə alınmışdır.

Iqtisadi sahədə əldə olunan uğurlar əhalinin sosial məsələlərinin həllinə, rifah halının yaxşılaşmasına geniş imkanlar açır. Bu ilin əvvəlindən ölkə başçısı cənab İlham Əliyevin sərəncamları ilə həyata keçirilən 2 sosial paket 4 milyondan çox insanın güzəranının yaxşılaşmasını nəzərdə tutur. İlin əvvəlindən pensiyalar 118 manatdan 200 manata minumum əmək haqqı isə 130 manatdan 250 manata yüksəlib.

Qəbul edilən birinci sosial islahat paketi 3 milyon ölkə vətəndaşını əhatə edir.

Bunun üçün dövlət tərəfindən çəkilən maliyyə xərci 1,6 milyard manatdır. Ümumilikdə həyata keçirilən iki sosial paketin dəyəri cari il üçün 2,3 milyard manat müəyyənləşdirilib. Növbəti il üçün isə bu rəqəm 3 milyard manata çatdırılaraq 4,2 milyon ölkə vətəndaşını əhatə edəcək.

Beləliklə iqtisadiyyatın durmadan inkişaf etdirilməsi üçün ölkə başçısı cənab İlham Əliyev başda olmaqla dövlətimizin həyata keçirdiyi uğurlu siyasət əhalinin rifah halının yüksəlməsinə hərtərəfli zəmin yaratmışdır.

**"Qəbələ"**